# «Bir qadın evindən çıxıb müharibəyə gedirsə...»

**Xəbər verdiyimiz kimi Vətən müharibəsinin tək qadın şəhidi, hərbi feldşeri Arəstə Baxışovanın doğum günüdür.**

Adalet.az-a açıqlamasında Müharibə Veteranı Qadınlarına Sosial Yardım" İctimai Birliyinin sədri, Qarabağ veteranı, cərrah Rada Abbas Arəstə xanım kimi şəhidlərimizin ailələrinin daim diqqətdə saxlanılmasının vacibliyini vurğulayıb:

"Həmişə deyirəm ki, bir qadın evindən çıxıb müharibəyə gedirsə, bu artıq qəhrəmanlıqdır. Üstəlik qadın döyüşdə şəhid olursa, bu görünməyən bir şeydir. Düşünürəm ki, dövlət Arəstə xanımın ailəsinə ciddi qayğı göstərməlidir.

Övladları dövlət hesabına məktəbdə oxuyur. Ailəsinə mənzil verilməliydi, amma başım qarışıq olduğu üçün bundan xəbərsizəm. Şəhid ailələrimiz dövlətin və insanların qayğısıyla əhatə olunmalıdır. Onlar bizə şəhidlərin əmanətidir. Allah bizi şəhidlərin yanında üzüqara çıxarmasın. Onların bizə qoyub getdiyi əmanətlərə xəyanət etməyək. Şəhid analarına səbr diləyirəm. Vətən, başın sağ olsun deyirəm. Torpağımız onsuz da bizim üçün dəyərli idi, onu şəhidlərimiz öz qanlarıyla suvardığı üçün o bizə daha çox əzizdir, dəyərlidir. Şəhid analarına, övladlarına dünyanı bəxş etsək də, onların övladlarını bir dəqiqə gözləri önünə gətirmək kimi gücümüz yoxdur. Ona görə də onların haqqı ödənməlidir".

Qeyd edək ki, Arəstə Baxışova 1989-cu il mayın 4-də Xaçmaz şəhərində anadan olub. Arəstə Baxışovanın 2 qardaşı



olub. Onun atası - baş leytenant Kərim Baxışov Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb və Arəstənin dörd yaşı olanda vəfat edib.

Arəstə Baxışova 1995-2004-cü illərdə Biləcəri qəsəbəsində yerləşən Şuşa şəhər 3 nömrəli tam orta məktəbdə təhsil alıb. 2004-2008-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Kollecində "İngilis dili" üzrə təhsil alıb. Mərdan adında oğlu və Zəhra adında qızı yadigar qalıb.

Silahlı Qüvvələrimizin çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanındanca tibbi yardım göstərib. Arəstə Baxışova oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Arəstə Baxışova ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Arəstə Baxışova ölümündən sonra 2021-ci il mayın 12-də Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ingilis tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan "Florence Nightingale" medalı ilə təltif edildi.

**Vasif Əlihüseyn**